Azərbaycan ordusu.- 2020.- 19 noyabr. S. 8.

# “Xalqımızı qələbələrimizlə sevindirdik”



Vətən müharibəsinin ilk döyüşlərində bir sıra yaşayış məntəqələrimiz qəsbkarlardan azad olundu. Bu gün Azərbaycan Bayrağı ermənilərdən təmizlənmiş Suqovuşanda, Hadrutda, Füzulidə, Cəbrayılda, Xudafərin körpüsündə, Zəngilanda, Qubadlıda və gözəl Şuşamızda dalğalanır. Müzəffər Azərbaycan Ordusu erməni qəsbinə, erməni işğalına tamamilə son qoydu, düşməni məğlubiyyətə uğratdı.

Döyüşçülərin də üzündə sevinc, fərəh gördük. Bu zəfər sevinci, qələbə fərəhi idi - müqəddəs, doğma bir fərəh idi. Vətən uğrundakı döyüşlərdə böyük hünər göstərmiş qalib hərbçilərlə söhbət etməyin duyğusal bir sevinci, ovqatı, ahəngi var. Ağır döyüşlərdə düşməni məğlubiyyətə uğratmış, zəfər qazanmış, torpaqlarımızı erməni işğalından azad etmiş əsgərlərlə görüşümüz ömrümüzə yazıldı.

Gizir Tural Əlizadə xidmətə başladığı ilk günlərdən hərbçi olacağına qərar verib. Xidmətini başa vuran kimi gizir hazırlığı kursunda oxuyub. Vətən müharibəsində gedən döyüşlərdə vuruşub. Sərrast atəşi ilə yurdumuzdan çıxmaq istəməyən erməni qəsbkarlarını məhv edir. Döyüşdən yenicə qayıtmış gizirin üzündə zəfər sevinci dolaşırdı. Döyüşçü iştirakçısı olduğu qanlı savaşdan böyük həvəslə danışdı. Dedi ki, indi biz böyük tarixi günlər yaşayırıq. Vətən müharibəsi qələbəmizlə başa çatdı. “Çox qürurvericidir ki, biz bu müqəddəs döyüşlərin iştirakçısı olduq. Qəsbkarların canlı qüvvəsini məhv etdik, döyüş texnikalarının külünü göyə sovurduq. Ordumuzun hissələri döyüşlərdə bir-birinin ardınca erməni qəsbkarlarına sarsıdıcı zərbələr vurdu. Müharibə başlanandan indiyə qədər yüzlərlə yaşayış məntəqələrimizi düşməndən azad etdik. Azərbaycan Ordusu yeni zəfərlər qazandı. İllərdən bəri istəyində olduğumuz arzularımıza 44 gün ərzində qovuşduq. Həmişə istəyirdik və gözləyirdik ki, erməni qəsbkarlarını döyüşdə məğlubiyyətə uğradıb işğal altında olan torpaqlarımızı azad edək. Torpaqlarımızı azad etdik. Biz Vətən torpaqlarının azadlığı uğrunda vuruşduq və qalib gəldik. Bu vuruş hər birimiz üçün müqəddəs oldu. Bu müqəddəs müharibədən biz qalib çıxdıq!”

- Vətən torpaqlarının hər qarışı, hər addımı bizim



üçün doğma və əzizdir. Bu doğmalıqdandır ki, biz cəsarətlə, hünərlə vuruşduq, - deyə çavuş Arzuman Həbibov söhbətimizə qoşuldu. - Çox fərəhli, qürurverici anlar yaşadıq. Uzun illər erməni işğalında qalmış Vətən torpaqlarının azadlığı uğrunda döyüşdük. Bütün döyüşlərdə düşməni ağır itkilərə məruz qoyduq. Onların



qaçmaqdan başqa yolu yox idi. Çünki mövqelərində ləngiyib qalsaydılar, güllələrimizə tuş gələcəkdilər. Ölümdən qurtulmaq üçün Ermənistana üz tutdular. Erməni işğalı başa çatdı.

Ermənilər işğal etdikləri ərazilərimizi uçurub dağıdıblar. Elə bir ev yoxdur ki, girib orada yaşamaq mümkün olsun. Düşmənin uçurub dağıtdıqları evlər, binalar təzədən tikiləcək.

Əsgər Əlxeybər Qəmbərov da Vətən müharibəsi başlanan gündən vuruşan oğulların sırasında olub. Zirehli texnikadan erməni işğalçılarının mövqelərinə od ələyib. Hər gün onun sərrast atəşi düşmənin mövqelərini darmadağın edib. Ordumuz uğurlar qazandı, zəfərlər çaldı. Qazanılan qələbələrdə, uğurlarda hər bir zabitin, hər bir əsgərin ayrıca qəhrəmanlıq payı var. Əsgər Əlxeybər Qəmbərov dedi ki, hələ kiçik yaşlarından erməni işğalçılarına nifrət bəsləyirdi. “Bu nifrət ermənilərin Xocalıda törətdikləri soyqırımdan yaranmışdı. Döyüşlər zamanı bu nifrət mənə daha da güc-qüvvət verdi. Biz döyüş meydanlarında Xocalıda, Gəncədə, eləcə də başqa şəhər və kəndlərimizdə günahsız öldürülmüş, güllələnmiş insanların qisasını aldıq. Şəhər və kəndlərimiz qəsbkarlardan təmizləndikcə daha da fərəhlənirdik, daha da şücaətlə vuruşurduq. Oktyabrın 18-də - Müstəqillik Günündə üçrəngli bayrağımızın həm Füzuli rayonunun mərkəzində, həm də qədimdən qədim olan Xudafərin körpüsündə qaldırılması hamı kimi məni də çox sevindirdi. Bayrağımızın Şuşada dalğalanmağını eşidəndə sevincimin həddi-hüdudu olmadı. Bu müqəddəs günü həmişə arzulayırdıq. Müzəffər Azərbaycan Ordusu bundan sonra da xalqımıza böyük sevinclər yaşadacaq”.

Bu qələbələr həmişə ordumuzu xalqımıza sevdirəcək. Azərbaycan əsgərinin azad etdiyi ərazilərdə yaşayış məntəqələrimizi Azərbaycan xalqı yenidən quracaq.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**